Azərbaycan–Slovakiya əməkdaşlığı strateji mərhələdə

Azərbaycan–Slovakiya münasibətləri yeni strateji mərhələyə qədəm qoyur. Prezident İlham Əliyevin Bratislavaya rəsmi səfəri iki ölkə arasında həm siyasi dialoqun dərinləşdirilməsi, həm də iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi baxımından olduqca önəmldir.

Səfər çərçivəsində dövlət başçılarının mətbuata birgə bəyanatları Azərbaycan və Slovakiyanın əməkdaşlıq gündəminin nə qədər geniş və çoxşaxəli olduğunu bir daha nümayiş etdirdi. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya imkanları, texnoloji tərəfdaşlıq, müdafiə sənayesi və investisiya istiqamətlərində aparılan müzakirələr həm ikitərəfli münasibətlərdə yeni səhifə açır, həm də regionda yaranan geoiqtisadi reallıqlara uyğun olaraq əməkdaşlığın strateji mahiyyətini gücləndirir.

Slovakiyanın Avropa İttifaqının mühüm üzvü, Azərbaycanın isə Cənubi Qafqazın əsas enerji və logistika mərkəzi kimi mövqeyi bu dialoqun əhəmiyyətini daha da artırır. Prezidentlərin bəyanatlarında vurğulanan qarşılıqlı etimad, tamamlayıcı iqtisadi potensial və enerji sahəsində yeni əməkdaşlıq platformaları gələcək illərdə iki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinə dair aydın mesaj verir.



Ekspert rəyi

Vüqar BAYRAMOV,
Milli Məclisin deputatı

Slovakiya şirkətləri Azərbaycan iqtisadiyyatına investisiya yatırmaqda maraqlıdırlar. Çünki Azərbaycanın müxtəlif sahələrə Slovakiya sərmayəsini cəlb etmək üçün yaxşı imkanları var. Eyni zamanda, Azərbaycan iş adamlarının da Slovakiyaya investisiya qoyması önəmli istiqamətlərdən biri olaraq qalır.

Ümumilikdə Azərbaycan iş adamları Mərkəzi Avropaya daha çox sərmayə yatırmağa maraq göstərirlər. 2024-cü ildə Azərbaycan və Slovakiya arasında ticarət dövriyyəsi 46 milyon dollar olub. Halbuki real potensial daha yüksəkdir. Bu, ölkələrimiz arasında iqtisadi əlaqələrin dərinləşməsi, ticarət dövriyyəsinin artırılması üçün imkanlar yaradır. Bir tərəfdən Slovakiyadan ərzaq və bəzi sənaye məhsullarını idxal etmək mümkündür. Digər tərəfdən, Azərbaycan kənd təsərrüfatı və emal olunmuş ərzaq məhsulları ilə Slovakiya bazarına çıxa bilər. Slovakiya bazarı Azərbaycan üçün qeyri-neft ixracının artırılması baxımından əhəmiyyətlidir. Çünki bu, qeyri-neft məhsullarının Slovakiyaya daha çox ixrac edilməsinə şərait yaradır.

Bununla yanaşı, turizm sahəsində də iki ölkə arasında böyük potensial mövcuddur. Həm Slovakiyadan turistlərin Azərbaycana cəlb edilməsi, həm də azərbaycanlıların Slovakiyaya səfərlərinin artırılması yüksək qiymətləndirilir. Bu isə turizm əlaqələrinin daha da inkişafına imkan verə bilər.

Slovakiya ilə Azərbaycan arasında formalaşan yeni əməkdaşlıq xətti son illərin geoiqtisadi reallıqları fonunda xüsusi çəki qazanır. Bu münasibətlərin təməlində, şübhəsiz, iqtisadi tərəfdaşlıq dayanır. İki ölkə arasındakı ticarət dövriyyəsinin 2022-ci ildə 52,7 milyon dollar səviyyəsində olması və 2023-cü ildə daha da yüksəlməsi qarşılıqlı marağın artdığını göstərir. Hazırda statistik göstəricilər bu dinamikanın davam etdiyini, ticarət həcminin ildə-ildən genişləndiyini təsdiqləyir. Bratislavada Prezident İlham Əliyev Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə mətbuata bəyanatlarla çıxış zamanı əminliklə bildirdi ki, Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir.

Azərbaycanın son illərdə yaratdığı əlverişli investisiya mühiti, xüsusilə də Ələt Azad İqtisadi Zonasında formalaşdırılan xüsusi rejim Slovakiya şirkətləri üçün də yeni fürsətlər açır. Bratislavadan Bakıya artan biznes marağı Azərbaycan-Slovakiya biznes forumunda səsləndirilən fikirlərdə aydın şəkildə öz əksini tapdı. Energetika, sənaye, nəqliyyat, turizm və digər sahələri əhatə edən əməkdaşlıq gündəliyi iki ölkənin iqtisadi xəritəsində genişlənən kəsişmə nöqtələrinin yarandığını göstərir. Mövcud perspektiv nəzərə alınsa, bu istiqamətlərdə əməkdaşlığın daha böyük templə inkişaf edəcəyi şübhə doğurmur.

Slovakiyanın Azərbaycan iqtisadiyyatına artan marağı Azərbaycanın Avropa rimizdə fəaliyyət göstərməsi həm siyasi etimadın, həm də strateji əməkdaşlığın səviyyəsini ortaya qoyur. Xüsusilə Ağdamın Qərvənd kəndinin yenidən qurulması Slovakiya şirkətinə həvalə olunub və bu qərar, eyni zamanda, iki ölkə arasında dostluğun rəmzi kimi dəyərləndirilir. Bu əməkdaşlığın bərpa prosesində yaratdığı sinerji tərəfdaşlığın gələcək miqyasını daha da genişləndirir.

Bugünkü mənzərə onu deməyə əsas verir ki, Azərbaycan və Slovakiya iki müstəqil və qərarlı siyasət yürüdən dövlət kimi dostluq və əməkdaşlıq münasibətlərini qarşıdakı illərdə daha yüksək səviyyəyə daşımağa hazırdır. Regionda dəyişən geosiyasi reallıqlar fonunda bu tərəfdaşlıq hər iki ölkə üçün yeni imkanlar, yeni iqtisadi üfüqlər və uzunmüddətli strateji üstünlüklər vəd edir.

Nurlan Abdalov

Ekspert rəyi

Aqil ƏSƏDOV,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri

Slovakiya transmilli şirkətlərin investisiyalarını cəlb edərək, "Volkswagen", "Kia" və s. bir sıra avtomobillərin istehsalı sahəsində Avropada lider ölkəyə çevrilib ki, bu da gələcəkdə əməkdaşlıq imkanları vəd edir. Ən əsası, dünyanın transmilli şirkətlərinin investisiya yatırması Slovakiyanın stabil, Aİ daxilində öz milli maraqları naminə ardıcıl siyasət yürüdən etibarlı tərəfdaş kimi qəbul edilə bilər. Hansı ki, Azərbaycan dövləti də məhz stabilliyin, sabitliyin, düşünülmüş və ardıcıl siyasi qərarların sayəsində dünya dövlətlərinin, investorlarının diqqətini cəlb edir. Yəni bu iki ölkə arasında münasibətlərin inkişafı üçün mühüm amillərdəndir.

Azərbaycan-Slovakiya münasibətləri işğaldan azad edilmiş ərazilərin bərpasına da öz töhfəsini verməkdədir. Ağdamın Baş Qərvənd kəndində fərdi yaşayış evlərinin tikintisi ilə bağlı Slovakiya şirkəti ilə müqavilə bağlanılıb və şirkət artıq tikinti işlərinə başlayıb.

Azərbaycan-Slovakiya münasibətlərində uzunmüddətli perspektivlər vəd edən sahələrdən biri də müdafiə sənayesi sahəsidir. Hər zaman sülhpərvər siyasət yürüdən Azərbaycan dövlətinin investisiyaları ilə Slovakiya müdafiə sənayesinin birliyi daha uğurlu nəticələr əldə etməyə imkan yarada bilər. İki ölkə arasında iqtisadi münasibətlərin mühüm istiqamətlərindən birini də nəqliyyat-logistika layihələrində əməkdaşlıq təşkil edir. Slovakiya dövləti bir neçə ildir Azərbaycanın iştirakı ilə reallaşan beynəlxalq nəqliyyat layihələrində iştirak edir. Xüsusilə Orta Dəhliz imkanlarının daha da genişləndirilməsi ilə bağlı əməkdaşlıq etməkdədir. İki dövlət arasında əlaqələrin daha da genişləndirilməsi üçün nəqliyyat layihələrinə də birgə əlavə vəsait qoyuluşu nəzərdə tutulub ki, bu da ikitərəfli münasibətlərin inkişafına ciddi dəstək verəcək.

istiqamətində iqtisadi əlaqələrini genişləndirməsinin bariz nümunəsidir. Ölkəmizin Mərkəzi Asiya ilə formalaşdırdığı strateji xəttə paralel olaraq, Avropa ilə iqtisadi inteqrasiyanın güclənməsi ümumi xarici iqtisadi siyasətin çoxvektorlu xarakter aldığını nümayiş etdirir.

Ölkə başçısının qeyd etdiyi kimi, Azərbaycan bu gün Şərqlə Qərb arasında müəyyən körpü rolunu oynayır. Həmçinin Orta Dəhliz layihəsində də ölkəmizin əvəzsiz rolu var. Məhz bütün bunlar Aİ ölkəsi kimi Slovakiyanında diqqət mərkəzindədir.

Xüsusi vurğulanmalıdır ki, Slovakiya şirkətlərinin işğaldan azad olunan ərazilə-